**Azərbaycan Respublikasının Prezidenti yanında**

**Dövlət İdarəçilik Akademiyası**

5902.17 – “Davamlı İnkişafın İdarə Edilməsi”

ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanının

# PROQRAMI

**Bakı 2021**

## İzahat Vərəqi

Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikasının daha keyfiyyətli inkişaf mərhələsinə keçidini təmin edəcək yol xəritəsini müəyyənləşdirib. Azərbaycanda davamlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının formalaşdırılması, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış və təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinin bərqərar edilməsi Prezident İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamına əsasən növbəti onillikdə ölkəmizin sosial-iqtisadi inkişafı naminə reallaşdırılacaq 5 Milli Prioritetdir. Milli Prioritetlər eyni zamanda BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək davamlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan gələcək nəsildə davamlı inklüziv inkişaf sahəsində bilik və bacarıqların formalaşdırılması və göstərilən istiqamətdə elmi-tədqiqat işlərinin stimullaşdırılması olduqca aktualdır.

5902.17 – "Davamlı İnkişafın İdarə Edilməsi" ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı proqramının əsas məqsədi doktorant və dissertantlarda bu bilik sahəsinin müasir vəziyyəti, inkişaf xarakteri və spesifik xüsusiyyətləri barədə mümkün qədər dolğun təsəvvür yaratmaq və onları yüksək səviyyəli peşəkar kimi formalaşdırmaqdan ibarətdir. Proqrama fənnin ən əsas prioritet səciyyə daşıyan fundamental – nəzəri və tətbiqi – praktiki problemləri daxil edilmişdir. Bundan başqa, proqram bu bilik sahəsi ilə bağlı olan məsələlərin sistemləşdirilmiş şəkildə aydınlaşdırılmasını, yeniliklərlə ənənəvi bilgilərin, klassik yanaşmaların qarşılıqlı əlaqəsini nəzərdə tutur. Proqramda bütün mövzular məntiqi ardıcıllıqla izah edilir. Proqram siyasi elmin "Davamlı inkişafın idarə edilməsi" bölməsinin müxtəlif tədqiqat sahələri üzrə strukturlaşdırılmışdır. Bütövlükdə proqram ali təhsilin doktorantura pilləsi üçün işlənilmiş və qəbul olunmuş həm müasir beynəlxalq, həm

də ölkə daxili standartlara uyğun tərtib edilmiş və doktorantların bilik səviyyəsinin artırılması, onların dünyagörüşlərinin daha da genişləndirilməsinə yönəlmişdir.

## Mövzular və onların məzmunu

## Mövzu 1

## İnkişaf və inkişafın dəyərləndirilməsi

1. İnkişaf anlayışı və inkişafın istiqamətləri
2. İnsan cəmiyyətinin inkişafının əsas mərhələləri
3. Sənaye inqilabları və onların inkişafa təsiri
4. Ölkə və ərazilərin inkişaf göstəriciləri və onların təhlili
5. Tərəqqi və xoşbəxtlik göstəriciləri
6. Biliyə əsaslanan inkişaf və texnoloji inkişaf göstəriciləri
7. İnkişafda mənfi tendensiyalar: gələcəksiz inkişaf
8. İnkişafda mənfi tendensiyalar: qeyri-bərabər inkişaf
9. İnkişafda mənfi tendensiyalar: texnoloji geriləmə ilə inkişaf
10. Azərbaycan Respublikasının inkişaf göstəriciləri

## Mövzu 2

## Davamlı inkişaf və müasir çağırışların idarə edilməsi

1. Ölkələrin inkişaf səviyyələrində kəskin fərqlər əsas iqtisadi çağırış kimi
2. Dünyanın əsas sosial çağırışları
3. Qlobal və lokal ekoloji çağırışlar
4. Davamlı inkişaf və müasir çağırışların idarə edilməsi
5. Davamlı inkişaf konsepsiyasının mahiyyəti, yaranması və inkişafı
6. Qlobal iqlim dəyişmələri və onların idarə edilməsində beynəlxalq əməkdaşlıq
7. Davamlı inkişafın idarəedilməsində istehlak və istehsal mədəniyyəti
8. Davamlı inkişafın iqtisadi, sosial və ekoloji indikatorları
9. Azərbaycan Respublikasında davamlı inkişaf göstəriciləri

## Mövzu 3

## Davamlı inkişaf göstəriciləri

1. Davamlı inkişaf əsas qlobal prioritet kimi

2. BMT-nin davamlı inkişaf naminə məlumatlandırma və biliklərin formalaşması sahəsində fəaliyyəti
3. İnsan inkişafının davamlı inkişafın planlaşdırılması və idarəedilməsində rolu
4. Azərbaycan Respublikası davamlı insan potensialına əsaslanan inkişaf haqqında bilikləri ümumi, orta və ali təhsilə daxil edən dünyada ilk ölkədir
5. Davamlı inkişafın iqtisadi göstəriciləri
6. Davamlı inkişafın sosial göstəriciləri
7. Davamlı inkişafın ekoloji göstəriciləri
8. Davamlı inkişafın qiymətləndirilməsi və hesabatların hazırlanması
9. Davamlı inkişaf haqqında qlobal və milli hesabatlar
10. Azərbaycan Respublikasının dayanaqlı (davamlı) inkişafa dair milli hesabatları

**Mövzu 4.**

**Davamlı inkişaf məqsədləri**

1. BMT-nin qlobal miqyasda davamlı inkişafın planlaşdırılması və idarəedilməsi sahəsində fəaliyyəti
2. BMT-nin 2015 - 2030-ci illər üçün hədəflənmiş davamlı inkişaf məqsədləri
3. Davamlı inkişaf məqsədləri və onların hədəflərinin geniş olmasının səbəbləri
4. Davamlı inkişaf məqsədlərinin əsas qrupları
5. Məhrumiyyətlərlə bağlı davamlı inkişaf məqsədləri
6. Qeyri-bərabərliklə bağlı davamlı inkişaf məqsədləri
7. Təhsil və sağlamlıqla əlaqədar davamlı inkişaf məqsədləri
8. Davamlı inkişaf naminə beynəlxalq əməkdaşlıq
9. Heydər Əliyev Fondunun milli və qlobal miqyasda davamlı inkişaf naminə fəaliyyəti
10. Azərbaycanda Qlobal Humanitar Forumlar və davamlı inkişaf məqsədləri

**Mövzu 5**

**Davamlı inkişafın idarəedilməsində məhrumiyyətlər**

**və qeyri-bərabərliklə mübarizə**

1. Yoxsulluğun mahiyyəti və yoxsulluğun növləri
2. Yoxsulluq və aclıqla mübarizə davamlı inkişafın məqsədi kimi
3. Mütləq, nisbi, fərdi yoxsulluq, onların dəyərləndirilməsi və idarə edilməsi

4. Azərbaycan Respublikası yoxsulluqla mübarizədə yüksək nəticələr əldə edən dünya örnəyi kimi
5. Azərbaycan və dünyanın lider ölkələrində yoxsulluqla mübarizənin müqayisəli təhlil (BMT, Dünya Bankı, Beynəlxalq Valyuta Fondunun hesabatları əsasında)
6. İnsan potensialının inkişafının yoxsulluq ilə mübarizədə rolu
7. Dünyada gəlir və istehlakda qeyri-bərabərlik
8. Sosial qeyri-bərabərliyin dəyərləndirilməsi (Cini indeksi, Kvintil göstəricisi və s.)
9. Heydər Əliyev Fondunun inklüziv təhsil və inklüziv səhiyyə layihələrinin qeyri-bərabərlik ilə mübarizədə rolu
10. Azərbaycan Respublikasının uğurlu sosial siyasəti Davos Dünya İqtisadi Forumun sənədlərində

## Mövzu 6

## Gender bərabərliyinin idarə edilməsi davamlı inkişafın məqsədi kimi

1. Gender anlayışı
2. Gender bərabərliyinin göstəriciləri
3. Gender qeyri-bərabərliyi ilə mübarizə davamlı inkişafın məqsədi kimi
4. Gender bərabərliyinin davamlı inkişaf naminə idarə edilməsi üsulları
5. Azərbaycan Respublikasında və dünyanın inkişaf etmiş ölkələrdə qadınların seçki hüquqlarının tanınması xronologiyası
6. Gender bərabərliyinin təmin edilməsində QHT-lərin rolu
7. Gender bərabərliyi BMT-nin sənədlərində
8. Gender bərabərliyi sahəsində beynəlxalq əməkdaşlıq
9. Azərbaycan Respublikasında gender siyasəti

## Mövzu 7

## İnsan potensialı və davamlı inkişaf məqsədləri

1. İnsan potensialının inkişafı və rəqabətli insan kapitalına çevrilməsi 2030-ci il üçün milli prioritet kimi
2. İnsan inkişafı anlayışı
3. İnsan inkişafını müəyyənləşdirən amillər
4. İnsan inkişafında təhsil göstəriciləri
5. İnsan inkişafında sağlamlıq göstəriciləri

6. “Qara qızıl”ın “İnsan qızıl”ına çevrilməsinin rəqabətli insan kapitalının formalaşmasında rolu
7. Azərbaycan Respublikasının təhsil sahəsində dövlət siyasəti
8. Azərbaycan Respublikasının sağlamlıq sahəsində dövlət siyasəti
9. Heydər Əliyev Fondunun təhsil sahəsində fəaliyyəti
10. Heydər Əliyev Fondunun sağlamlıq sahəsində fəaliyyəti

## Mövzu 8

## Davamlı inkişaf naminə beynəlxalq əməkdaşlıq

1. Davamlı inkişaf konsepsiyası beynəlxalq forumların gündəliyində
2. BMT-nin 70-ci Yubiley Sessiyası və davamlı inkişaf məqsədləri
3. Davamlı inkişafa həsr olunmuş Dünya Sammitləri
4. İqlim dəyişmələri ilə mübarizə sahəsində beynəlxalq əməkdaşlıq
5. Bakı humanitar forumlarının gündəliyində davamlı inkişafın idarəedilməsi
6. Azərbaycan Respublikasının beynəlxalq konvensiyalarda iştirakı
7. Heydər Əliyev Fondunun davamlı inkişaf naminə beynəlxalq əməkdaşlığı

## Mövzu 9

## İnklüziv cəmiyyət davamlı inkişafın məqsədi kimi

1. Inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşması ölkənin 2030-ci il üçün əsas prioritetidir
2. İnklüziv inkişafın mahiyyəti və xüsusiyyəti
3. Inklüziv cəmiyyətin iqtisadi göstəriciləri
4. Orta və median gəlirlər və onların inklüziv inkişafın dəyərləndirilməsində istifadəsi
5. Inklüziv cəmiyyətin sosial göstəriciləri
6. Inklüziv cəmiyyətin demoqrafik göstəriciləri
7. Inklüziv cəmiyyətin ekoloji göstəriciləri
8. İDEA ekoloji hərəkatının inklüziv cəmiyyətin formalaşmasında rolu
9. Azərbaycan Respublikasının İnklüziv inkişaf indeksinin inkişaf etmiş ölkələrin göstəriciləri ilə müqayisəli təhlili
10. Beynəlxalq təşkilatlar Azərbaycanın uğurlu sosial siyasəti və bu sahədə dünya liderliyi haqqında

## Mövzu 10

## Davamlı inkişafı təmin edən yeni idarəetmə texnologiyaları

1. Davamlı inkişaf iqtisadi, sosial, ekoloji idarəetməyə yeni yanaşma kimi
2. Davamlı inkişaf konsepsiyasının yaranması zərurəti
3. Davamlı insan potensialına əsaslanan inkişaf haqqında biliklərin tədrisə daxil edilməsi xronologiyası: Azərbaycan və dünya
4. Davamlı inkişafın idarə edilməsində enerji səmərəliliyi indikatorları
5. Davamlı inkişafın idarə edilməsində tullantı miqdarı indikatorları
6. Davamlı inkişafın idarəedilməsində sinergetik texnologiyalar
7. Davamlı inkişafın idarəedilməsində komplementar texnologiyalar
8. Davamlı inkişafın idarəedilməsində kompensasion texnologiyalar
9. Azərbaycan Respublikasında davamlı inkişaf edən inklüziv cəmiyyətin formalaşması beynəlxalq təşkilatların sənədlərində

## İmtahan sualları

1. Bəşəriyyətin inkişafının əsas mərhələləri
2. Davamlı inkişaf konsepsiyasına müasir yanaşmalar
3. Davamlı inkişaf konsepsiyasına tənqidi yanaşmalar
4. Ətraf mühit və inkişaf sahəsində beynəlxalq anlaşmalar
5. Rio+20: müasir çağırışlar
6. Davamlı inkişaf göstəricilərinin işlənməsində BMT-nin rolu
7. Davamlı inkişafın ekoloji faktorları
8. Davamlı inkişafın iqtisadi faktorları
9. Davamlı inkişafın sosial faktorları
10. Resurs problemi və davamlı inkişaf yanaşması ilə ondan çıxış
11. Davamlı inkişaf kontekstində su və ekologiya problemləri
12. Aclıq problemi və onun həllinə yanaşmalar
13. Yoxsulluq və iqtisadi resursların qeyri-bərabər paylanması problemi
14. Qlobal enerji böhranı və onun həlli yolları
15. Davamlı inkişafın regional aspektləri
16. Davamlı inkişaf konsepsiyasının qloballaşması
17. Davamlı inkişafın prinsip və faktorları: beynəlxalq aspekt
18. Təbii resurslardan istifadə problemləri
19. Kioto protokolu və iqlim dəyişmələri üzrə Paris Sazişi
20. Davamlı inkişafın sosial-iqtisadi problemləri
21. Əhali artımı və onun keyfiyyətinin dəyişməsi
22. Qloballaşma və onun nəticələri. Müasir dünyada inteqrasiya və dezintiqrasiya
23. Davamlı inkişafı amilləri və göstəriciləri
24. Davamlı inkişaf indeks və indikatorları
25. Qlobal iqtisadi, ekoloji və sosial problemlər və onların dünyanın inkişaf strategiyasına təsiri
26. Azərbaycan Respublikasında davamlı inkişafın təmin olunması
27. Azərbaycan Respublikasının 2030-cu ilədək milli prioritetləri
28. Davamlı inkişafın elmi və informasiya təminatı
29. Davamlı inkişafın təmini problemlərinin həllində beynəlxalq təşkilatların rolu
30. Roma klubu hesabatlarının davamlı inkişaf problemlərinin həllində rolu
31. İnklüziv cəmiyyət davamlı inkişafın məqsədi kimi
32. Milli davamlı inklüziv inkişaf modeli

33. Azərbaycan Respublikasında davamlı inkişafın təminində innovativ yanaşma və texnologiyalar
34. Davamlı inkişaf naminə dövlət-özəl tərəfdaşlığı
35. Davamlı inkişaf konsepsiyası və gender problemləri
36. Azərbaycan Respublikasında İnklüziv cəmiyyətə keçidi təmin edən dövlət idarəçiliyi sisteminin yaradılması
37. Davamlı inkişaf naminə gender siyasəti
38. Azərbaycan Respublikasında sosial siyasət və davamlı inklüziv inkişaf
39. İnsan potensialının inkişafı inkişafı indeksi
40. Korporativ sosial məsuliyyət və davamlı inkişaf
41. Davamlı inkişaf məqsədlərinin reallaşdırılmasında Heydər Əliyev Fondunun rolu
42. Azərbaycan Respublikasında davamlı inkişafın təmin olunmasında yeni idarəetmə texnologiyaları
43. Azərbaycan Respublikasının inklüziv inkişaf göstəriciləri və onların müqayisəli təhlili
44. Davamlı inkişaf naminə təhsil və maarifləndirmə
45. "Qara qızılı" "İnsan qızılına" transformasiyası konsepsiyası və Azərbaycanda insan inkişafı
46. Enerji səmərəliliyi və davamlı inkişaf
47. İnsan inkişafı amilləri və göstəriciləri
48. Davamlı inkişaf strategiyasının reallaşdırılmasının siyasi aspektləri
49. Mədəni xüsusiyyətlər və davmlı inkişaf konsepsiyası
50. Davamlı inkişaf problemləri ilə məşğul olan beynəlxalq təşkilatlar

## Ədəbiyyat

### Azərbaycan dilində

1. Əliyev İ.H. Bakı Dövlət Universitetin 100 illik yubiley münasibəti ilə keçirilən mərasimdə nitqi. 26 noyabr 2019.

2. Ələkbərov U.K. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Bakı, Təhsil, 2018, 216 s.

3. Azərbaycan – 2030. Minilliyin inkişaf məqsədlərindən dayanaqlı inkişaf məqsədlərinə doğru. Könüllü milli hesabat 2017, 80 s.

4. Ələkbərov U.K. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsaslar. Bakı, Təhsil, 2013, 234 s.

5. Şvab K. Dördüncü sənaye inqilabı. Bakı, UNEC, 2020, 200 s.

6. Azərbaycanda təhsil, elm və mədəniyyət, Bakı, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2020, 500 s.

7. Ələkbərov U.K. İnsan inkişafının əsasları. Bakı, Azpoliqraf, 2016, 280 s.

8. Ələkbərov U. Rəhimli R., Həbibova Z., Həsənov M. İnsan potensialına əsaslanan sosial müəssisələr Azərbaycanda davamlı innovativ inkişaf texnologiyası kimi. Bakı, Elmin İnkişaf Fondu, 2018, 216 s.

9. Rehimli Recep. Azerbaycan Devlet Personel Yönetimi, Kültür Ajans Yayınları, Ankara, 2011

10. Ələkbərov U.K. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarəedilməsinin əsasları. Bakı, Təhsil, 2017, 176 s.

11. Həbibova Z.Z. İnsan potensialı idarəetmə və inkişaf faktoru kimi. Bakı, Elm və Təhsil, 2017, 180 səh.

### На русском языке

1. Алиев И.Г. Выступление на Юбилейном мероприятии, посвященном 100 летнему юбилею Бакинского Государственного Университета, Баку, 26 ноября 2019.

2. Основы изучения человеческого развития. Москва, Из-во «Права человека», 1998, 168 с.

3. Алакбаров У.К. Основы управления устойчивым развитием и экологической цивилизацией. Баку, Асполиграф, 2017, 192 стр.

4. Алакбаров У.К. Основы управления инклюзивным развитием. Баку, Асполиграф, 2018, 192 стр.

5. Алакбаров У.К. Основы человеческого развития. Баку, Асполиграф, 2017, 280 стр.

6. Габибова З.З. Человеческий потенциал как основа идеологии развития. Баку, Асполиграф, 2014. 184 стр.

7. Габибова З.З. Человеческий потенциал: от идеологии роста к идеологии развития. Москва, «Наука», 2018. 182 стр.

8. Алакбаров, Мамедов, Габибова, Рагимли. «Эволюция государственного управления стран постсоветского пространства (1991-2021)» (Москва, Издательский дом «ДЕЛО» РАНХиГС, 2021, 448 стр.

9. Корчагина Е.В. Проблемы устойчивого развития регионов: учебник для вузов. Гатчина, ГИЭФПТ, 2016, 232 с.

10. Ващалова Т.В. Устойчивое развитие: учебное пособие. Москва, из-во Юрайт, 2019, 186 с.

11. Акимова Т.А. Основы экономики устойчивого развития. Москва, Экономика, 2013, с. 332.

12. Антипова О.А. Теоретико-методологические основы устойчивого развития экономики // Национальные интересы: приоритеты и безопасность. - 2019. - Т.15, вып.3. - С.476-489.

13. Дульзон А.А. Парадокс устойчивого развития. - М.: Триумф, 2018. - 264с.

**English**

1. Alakbarov Urkhan. Fundamentals of inclusive development management. Baku, 2019, 191 p.
2. Sachs J. The age of sustainable development, New York, Colombia University, 2015, 176 p.

3. Towards a green economy in Europe. EU environmental policy targets and objectives 2010-2050. European Environment Agency, Copenhagen, 2013.
4. Bateman I.J., Mace G.M., Fezzi C., Atkinson G. et al. Economic Analysis for Ecosystem Service Assessments Environ Resource Econ Springer Science+Business Media. V. B. 2010. P. 1-42.
5. Costanza R., Daly H.E. Natural Capital and Sustainable Development // Conservation Biology. 1992. V. 6. № 1. P. 37-46.
6. Blewitt, John (2015). Understanding Sustainable Development (2nd ed.). London: Routledge. ISBN 9780415707824. Retrieved 26 November 2017.
7. Lynn R. Kahle, Eda Gurel-Atay, Eds (2014). Communicating Sustainability for the Green Economy. New York: M.E. Sharpe. ISBN 978-0-7656-3680-5.
8. Meadows, D.H.; Randers, Jørgen; Meadows, D.L. (2004). *Limits to Growth: The 30-Year Update*. Chelsea Green Publishing. ISBN 978-1-931498-58-6.